# Qəbələdə 27 sentyabr - Anım günü qeyd edilmişdir



27 sentyabr 2021-ci il tarixdə Qəbələ rayon Şəhidlər Xiyabanında Anım günü tədbiri keçirilmişdir. Rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə müəssisə və təşkilat rəhbərlərinin, Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, müharibə iştirakçıları, qazilər və rayon ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə öncə Dövlət Himni səslənmiş və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan Ordu quruculuğu strategiyasının bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən çox böyük uğurla davam etməsindən, onun bir çağırışıyla dəmir yumruq kimi birləşən ordu-xalq birliyinin əzmlə mübarizə aparmasından və qalib gəlməsindən bəhs etmiş, şəhidlərə Allahdan rəhmət, şəhid ailələrinə səbr, qazilərə isə can sağlığı arzulamışdır. Şəhid valideynləri adından çıxış edən Əbülfəz Abdurahmanov və qazi Həbib Bayramov Vətən müharibəsində şəhid və qazilərimizin qəhrəmanlıqlarından söz açmış, göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirmişlər. Sonda şəhidlərin ruhuna Qurani-Kərimdən surələr oxunmuş və tədbir iştirakçıları Birinci Qarabağ və Vətən müharibəsində şəhadətə yüksəlmiş şəhidlərin xatirəsinə ucaldılmış kompleksi ziyarət edərək, məzarlara və xatirə lövhələrinin qarşısına gül dəstələri düzmüşlər. Daha sonra isə ayrılmış ərazidə Vətən müharibəsi şəhidlərinin xatirəsinə 500 ədəd göyrüş və qarağac ağacları əkilmişdir.





## Vətən müharibəsi şəhidinin ailə üzvlərinə orden və medal təqdim edilmişdir

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 24 iyun 2021-ci il tarixli sərəncamı ilə Vətən müharibəsində göstərdiyi igidliyə görə təltif edilmiş Qəbələ rayonundan olan şəhid hərbi həkim Aqşin Ənvərlinin ailə üzvlərinə medalların təqdim olunması ilə bağlı tədbir keçirilmişdir. Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsində keçirilən tədbirdə Vətən müharibəsi zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Ənvərli Aqşin Faiq oğlunun ölümündən sonra təltif olunduğu “Azərbaycan Bayrağı” Ordeni və “Vətən uğrunda” medalı ailə üzvlərinə təqdim olunmuşdur. Şəhidin valideynləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.



## Heç kəs unudulmur...

Qəbələ rayon Gənclər və İdman İdarəsinin kollektivi şəhid Ənvərli Aqşin Faiq oğlunun ailəsini ziyarət etmişdir. Ziyarətin məqsədi şəhid hərbi-həkim Aqşin Ənvərlinin əziz xatirəsini uca tutmaq, şəhid olmuş əsgər və zabitlərimizin xatirəsini əbədiləşdirmək, ermənilərin ölkəmizə qarşı təcavüzünü ictimaiyyətin diqqətinə bir daha çatdırmaq, yeniyetmə və gənclərdə vətənpərvərlik tərbiyəsinin gücləndirilməsini təmin etməkdən ibarərdir.

Görüşdə şəhidin atası Faiq Ağdullayev oğlunun keçdiyi döyüş yollarından danışmışdır. Faiq müəllim Aqşinin səngər yoldaşlarının onun haqqında danışdıqları xatirələrdən söhbət açmışdır. Hərbi-həkim kimi öz işini vicdanla görən, şərəflə xidmət edən, yüzlərlə yaralını həyata qaytaran Aqşin Xocavənd yaxınlığında gedən döyüşlərdə şəhid olmuşdur.

Dövlətimiz tərəfindən şəhidin xatirəsi əziz tutularaq, göstərdiyi şücaətlərə görə ailəsinə medallar təqdim edilmişdir.

## Vətən müharibəsi şəhidlərinin ildönümü qeyd edilmişdir

Vətən onu sevənlərindir. Onu sevənlər isə bu torpağın qayasında mamır olub bitərlər ki, vətən onlara oğul desin! Vətən də hər kəsə oğul deməz ki! Bu torpağın hər çınqılını, daşını, hər zərrəsini sevənlər, xalqı xalq edənlər vətəndaş olarlar. Vətəndaş adının qorunmasını qoruyan vətənsevərlərdir. Bu 44 günlük müharibədə öz inikasını daha düzgün təsdiq etdi. Könüllü yazılan ərizələr, səfərbərliyə ürəklə yanaşmalar, döyüşlərdə göstərilən şücaətlər məhz igidlərimizin zəfərə, qələbəyə inamından irəli gəlirdi. Qəbələli gənclər də bu zəfər uğrunda canlarını fəda etdilər. Torpaqlarımız uğrunda şəhidlik zirvəsinə ucalanlardan 3 igidimizin bu günlərdə anım günü qeyd olunmuşdur.






Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan 44 günlük Vətən müharibəsində gözünü qırpmadan canından keçən Qəbələ oğullarının anım tədbirləri keçirilmiş, məzarları ziyarət edilmişdir.

Sentyabrın 28-də rayonumuzun 2 gənc vətənpərvəri-Topbağ kənd sakini Hakim Baxışov və Böyük Pirəli kənd sakini İsmayıl Qurbanov Vətən müharibəsində şəhadətə qovuşmuşdur.

Setyabrın 29-da isə rayonumuzun Nic kənd sakini Elşən Dəmirli şəhadətə qovuşmuşdur.

Hər üç Vətən fədaisinin məzarlarını rayon icra hakimiyyətinin, hüquq mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, şəhidlərin təhsil aldığı məktəblərin kollektivi ziyarət etmiş, məzarları üzərinə gül dəstələri qoyulmuş, xatirələri anılmış, ruhlarına dualar oxunmuşdur. Şəhidlərin ailələri tədbir iştirakçıları tərəfindən ziyarət edilmişdir.

